UOT 902

VÜSALƏ ƏLİYAROVA
AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun
"Orta və Son dövrü arxeologiyası " şöbəsinin elmi işçisi
aliyarova_vusala@mail.ru

BORSUNLU VƏ SARIÇOBAN KURQANINDAN TAPILMIŞ NİZƏ UCLUQLARI HAQQINDA

DOI: https://doi.org/10.36719/2708-065X/110/284-287

Azərbaycanın hər baxımdan qədim bölgələrindən olan Qarabağ hər addımbaşı tarixi keçmişin bu və ya digər mərhələsi ilə bağlı abidələrlə zəngindir. Qarabağın maddi-mədəniyyət abidələrinin öyrənilməsinə XIX əsrin ikinci yarısından başlanılmışdır. İlk tədqiqatlar əcnəbi səyyah və tədqiqatçılara məxsus olsa da, daha sonralar yerli alimlərimiz Qarabağda çox saylı qazıntılar aparmış , tariximiz haqqında dəyərli məlumatlar əldə etmişlər. Qarabağda silsilə qazıntılar aparan görkəmli alimimiz Hidayət Cəfərovun kurqanlardan taptığı zəngin artefaktlar həmin dövr üçün təsəvvürlərimizi formalaşdırmağa çox böyük kömək olmuşdur. Bu məqalədə də Qarabağ ərazisindəki məşhur Borsunlu və Sarıçoban kurqanlarından tapılan tunc nizə ucluqları haqqında məlumat veriləcəkdir.

Açar sözlər: Qarabağ, arxeologiya, kurqan, artefakt, nizə ucluqları.

Giriş. 1980-cı ildən başlayaraq Qarabağda yeni sistemli arxeoloji qazıntılar aparılmışdır. Həmin tədqiqatlar zamanı əvvəllər məlum olmayan kurqanlar aşkar edilmişdir. Bu kurqanlara – Borsunlu, Bəyimsarov və Sarıçoban kurqanlarını misal göstərmək olar.

Borsunlu kurqanları - xarici görünüş etibarilə bir neçə tipə bölünür:

1. Örtüyü yalnız iri çay daşlarından ibarət olan kurqanlar.
2. Örtüyü iri parçalı çınqıldan ibarət olan kurqanlar.
3. Ətrafı kromlexlə əhatələnmiş, mərkəzi hissəsi daş örtüyə malik olan kurqanlar.
4. Ətəyi kromlexli, mərkəzi hissəsi gəc qatından ibarət olan kurqanlar.
5. Torpaq örtüklü kurqanlar. [1, s.60-61]

Qəbir kameraları əsasən dördkünc formalı olub, daş lövhələrlə inşa olunmuş və bəzi hallarda giriş yolları olmuşdur.

Dəfn formaları müxtəlifdir: inqumasiya (torpağa dəfn), kremasiya (yandırılaraq dəfn), kollektiv dəfn.

Kurqanlardan tapılmış əşyalara qara cilalı gil qablar, tunc baltalar, nizə ucluqları, şüşə muncuqlar, qızıl düymələr, at yüyüənləri, sümükdən və fil dişindən hazırlanmış bəzək əşyaları, mərmər toppuz və zireh lövhələri göstərmək olar.

Kurqanlar tunc dövrünün müxtəlif mərhələlərini – erkən, orta, son tunc dövrü və erkən dəmir dövrünü əhatə edir.

Bu maddi nümunələr əsasında kurqanlar e.ə. II – I minilliklərə aid edilmişdir.

Son Tunc dövrü kurqanları e.ə. XIV – VIII əsrləri əhatə edir. Son tunc dövrü kurqanlarından aşkar olunmuş metal əşyalar əsasən tuncdan hazırlanmışdır. Metal əşyalar sırasında silah nümunələrinə daxil olan nizə ucluqları xüsusi yer tutur.

Ümumi nəzər saldıqda nizə ucluqları həm xarici görünüşünə, həm də hazırlanma formalarına görə bir-birindən fərqlənir. Onlardan nisbətən qədimliyi ilə seçilən tiyəsi yarpaqvari formadadır və boru dəstək hissəsi tam bükülü deyildir. Onların dəstəklərində ağac sapın mıxla bərkidilməsi üçün deşik vardır.

Nizə ucluqlarının digər daha inkişaf etmiş formaları tökmə üsulu ilə hazırlanmışlar. Onların yarpaqvari nisbətən gödək tiyələri və konusvari boru dəstəkləri vardır. Borulu dəstəyin aşağı ucunda bir və ya iki deşik açılmışdır ki, burada tunc mıxlar vasitəsi ilə ağac dəstəyi bərkidilirdi.


Bəhs olunan nizə ucluqlarının əksəriyyətinin tiyəsinin ortasında qabarıq çıxıntı bir növ borulu dəstəyin davamı olaraq uc hissəsinədək uzanır. [3, s.110]

Tökmə üsulu ilə hazırlanmış nizə ucluqlarının bəzilərinin boru dəstəklərinin sonluğu başlıq formasında qabarıq olub, cızma və ya qabarıq xətlərlə naxışlanmışdır. A.A.İvanovskinin fikrincə, Gədəbəy rayonu ərazisində 56 №-li daş qutu qəbirdən aşkar edilən bu cür nizə ucluğu iki məqsədlə işlədilmişdir : həm xəncər kimi kəsmək , həm də nizə kimi batırmaq mümkündür. [6 , s.128]

Bu tip nizə ucluqları Zəyəmçay [4, s.53], Mingəçevir [5, s.16-22] , Qızılburun [7, s.13], Dovşanlı, Axmağı, Borsunlu, Xankəndi, Dəmqolu, Sarıçoban [2 , tab.46.1, tab.49, 16, tab.50, 14, 15, 25, tab.79, 1-8, tab.97, 4] və digər abidələrdən tapılmışdır.

Yuxarıda qeyd olunan arxeoloji abidələrin bir çoxundan nizə ucluqları ilə bərabər əsa başlıqlarına bənzər tunc əşyalarda aşkar edilmişdir. Belə başlıqlar nizənin dəstəyini bəzəməklə bərabər, həm də onu möhkəmləndirmişdir. [3, s.111]

Borsunlu kompleksindən 5 ədəd nizə ucluğu aşkar olunmuşdur. Kompleksə daxil olan nizə ucluqlarını iki tipə ayırmaq olar : 1) çox uzun və ensiz qanadlı ağaca taxılan hissəsi uzun borulu olanlar; 2) enli qanadlı , uzun borulu olanlar. [1, s.203] (şəkil 1)



Şəkil 1. Böyük Borsunlu kurqanı : 1 – 8 tunc nizə ucluqları.

Nizə ucluqlarının forması, ölçüsü , materialı və bəzəyi onların hansı məqsədlə istifadə olunduğunu müəyyən etməyə kömək edir. Borsunlu kurqanından tapılan nizə ucluqları döyüş və müdafiə məqsədilə istifadə olunurdu. Döyüş alətlərinin, həmçinin nizə ucluğununda qəbirə qoyulması dəfn edilən şəxsin döyüşçü və ya lider olduğunu vurğulayırdı.

Sarıçoban abidəsi - Tərtər rayonundakı Borsunlu və Bəyimsarov kurqanlarından sonra Azərbaycanda üçüncü möhtəşəm tayfa başçısı kurqanıdır.

Sarıçoban kurqanı beş kameradan ibarətdir: mərkəzi, qərb, şimal, şərq və cənub kamerası. Kurqan qarətçilər tərəfindən qarət olunsada, təsadüf üzündən şərq kamerasının bir hissəsinə və cənub kamerasına toxunulmamışdır.

Mərkəzi kamerada - tunc lövhələrlə bəzədilmiş taxt üzərində tayfa başçısı dəfn olunmuşdur. Qərb və şimal kameralarında isə onun silah daşıyanı və şəxsi mühafizəçisi bükülü vəziyyətdə basdırılmışdır. Tayfa başçısının ətrafında və başqa kameralarda 16 at skeletinin qalıqları aşkar edilmişdir ki, onlardan yeddisi cilovlanmış halda qalmışdır.

Sarıçoban kurqanı digər kurqanlardan zəngin maddi-mədəniyyət nümunələri ilə seçilir. Buradan tapılan metal məmulatları yalnız tuncdan hazırlanmışdır. Kurqandan 100-dən artıq ox ucluqları, silahlar, əmək alətləri, at əsləhələri, bəzək əşyaları (bilərzik, düymə, sancaq və s.) tapılmışdır.

Sarıçoban kompleksində bəzi silah nümunələri tək-tək nüsxələrə təmsil olunmuşdur. Buraya tunc nizə ucluğu, qılınc və xəncər daxildir. Nizə ucluğunun qalın konusvari sallaq borusu (uzunluğu 8,3 sm), qısa yarpaqvari tiyəsi (uzunluğu 6,5 sm, eni 3,7 sm) var. Göstərilən tip nizə ucluqlarına Xocalı-Gədəbəy mədəniyyətinin e.ə.XII-XI əsrlərə aid abiədələrində tez-tez təsadüf edilmişdir. [1, s.226] (şəkil 2)

Sarıçoban kurqanından tapılmış nizə ucluğu tökmə üsulu ilə hazırlanmışdır.



Şəkil 2. Sarıçoban kurqanı : tunc nizə ucluğu

Azərbaycanda yerli metallurgiya və metalişləmə sənətinin yüksək səviyyədə inkişafını özündə əks etdirən sübutlardan biri də bu ərazidə tapılmış metal məmulatların kimyəvi tərkiblərinin analizlərinin nəticəsidir. Aşağıda göstərilən cədvəldədə arxeoloji abidələrdən əldə olunmuş müxtəlif dövrlərə aid nizə ucluqlarının analizi və müqayisəsi onların hazırlanma texnalogiyasındakı inkişaf mərhələlərini və ictimai – mədəni dəyişiklikləri müəyyən etməyə imkan verir. [53, s.95], (cədvəl 3.1)

№	Əşyanın adı	Tapıldığı yer	Kimyəvi tərkibi % -lə											
			Cu	Sn	Pb	Zn	As	Sb	Ag	Au	Bi	Ni	Co	Fe
1	Nizə ucluğu	I Kültəpə	əsas	0.002	0.03	0.02	4.95	0.15	0.037	0	0	0.005	0	0.1
2	Nizə ucluğu	Telmankənd	əsas	0.02	0.5	0	4.6	0.02	0.052	0	0	0.01	0	0.2
3	Nizə ucluğu	II Kültəpə	əsas	0.05	0.05	0.05	0.2	0.2	0.092	0	0.005	0.028	0	0.1
4	Nizə ucluğu	Daşarx	əsas	0.5	0.3	0.01	0.5	0.05	0	0.2	0.05	0.05	0,3	0.2
5	Nizə ucluğu	Çalxanqala	əsas	12	0.55	0.01	0.5	0.05	0.07	0	0.02	0.015	0.002	0.03
6	Nizə ucluğu	Çalxanqala	əsas	0.05	0.04	0.44	0.3	0	0.051	0	0	0.004	0	2
7	Nizə ucluğu	Zəyəmçay	əsas	0.7	0.7	0.2	0.3	1.2	0	0.03	0.7	0.05	0	0.12
8	Nizə ucluğu	Daşkəsən	əsas	1.4	0.55	0.015	0.1	0.02	0.08	0	0.04	0.08	0.008	0.2
9	Nizə ucluğu	Uzuntəpə	əsas	7	1.2	0.03	0.2	0.006	0.064	0	0.005	0.02	0.003	0.1

Nəticə. Kimyəvi analizlərin nəticələri göstərir ki, nizə ucluqları əsasən, mislə qalayın və az miqdarda digər elementlərin (qurğuşun , arsen, dəmir, gümüş, nikel, qızıl və b.) süni qatışığından hazırlanmışdır. Çox güman ki, nizə ucluqlarının tərkibində metalların miqdarının fərqlilik təşkil etməsi, qədim metal işləmə sənətkarlarının hazırladıqları əşyanın istifadə məqsədindən asılı olaraq, onun möhkəmlik və elastiklik dərəcəsini nəzərə alaraq, misin tərkibinə nə qədər başqa elementin əlavə ediləcəyini əvvəlcədən dəqiq etmələrindən irəli gəlir. [3, s.94-95]

ƏDƏBİYYAT

1.Cəfərov H.F. “Qədim Qarabağ” (Tarixi arxeoloji tədqiqat: tunc və erkən dəmir dövrü). Bakı “Elm”, 2020, 526 s.
2. Cəfərov H.F. Azərbaycan e.ə.IV minilliyin axırı – I minilliyin əvvəllərində. Bakı, “Elm”, 2000, 187 s.
3. Cəlilov B.M. Azərbaycanda qədim metallurgiya və metalişləmə Bakı, “Elm və təhsil”, 2018, 240 s.

4. Cəlilov B.M. yeni tikinti sahələrində aparılan arxeoloji qazıntılardan tapılmış metal məmulatları / AMEA AEİ, 2003-2004-cü illərdə aparılmış arxeoloji qazıntıların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, " Nafta-Press", 2005, s.53 -54.
5. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Деревний Мингечаур. Баку, Издательство АН Азербайджанской ССР, 1959, с.191.
6. Ивановский А.А. По Закавказью./ МАК, вып.VI, М., 1911, с.85-185.
7. Спицын А.С. Некоторые Закавкзские могильники // Извест. ИАК СПб, 1909, вып.29, с.3-15.

ВУСАЛА АЛИЯРОВА
Институт Археологии и Антропологии НАНА

О НАКОНЕЧНИКАХ КОПИЙ, НАЙДЕННЫХ В КУРГАНАХ БОРСУНЛУ И САРЫЧОБАН

В результате раскопок в курганах Борсунлу были обнаружены наконечники копий различных форм и технических характеристик, установлено, что они изготовлены как литьём, так и ковкой. Курган Сарычобан выделяется богатством оружия и предметов материальной культуры; найденные здесь наконечники копий соотносятся с культурой Ходжалы-Гадабей и датируются, соответственно XIV – XIII вв до.н.э. (Борснлу) и XII–XI вв. до н.э. (Сарычобан). В исследовании рассматриваются конструктивные особенности, орнаментация и функциональное назначение наконечников, показано, что они использовались преимущественно в боевых и оборонительных целях. Химические анализы доказывают, что наконечники изготовлены из сплава меди, олова и других элементов, что наглядно демонстрирует уровень развития металлургии в древности. В результате данного исследования получены важные научные выводы о технологических особенностях древнего оружейного производства на территории Азербайджана, его целевом назначении и социально-культурном контексте.

Ключевые слова: Карабах, археология, курган, артефакт, наконечники копий.

VUSALA ALIYAROVA
Institute of Archaeology and Antropology of ANAS

A STUDY OF SPEARHEADS UNEARTHED FROM THE BORSUNLU AND SARICHOBAN KURGANS

As a result of excavations in the Borsunlu kurgans, spearheads of various shapes and technical characteristics were discovered. It was established that they were produced using both casting and forging techniques. The Sarichoban kurgan stands out for its wealth of weapons and material culture artifacts; the spearheads found there are associated with the Khojaly-Gadabay culture and are dated to the 12th–11th centuries BCE. The study examines the structural features, ornamentation, and functional purposes of the spearheads, showing that they were mainly used for combat and defense. Chemical analyses confirm that the spearheads were made from an alloy of copper, tin, and other elements, clearly demonstrating the level of metallurgical development in antiquity. As a result of this research, important scientific conclusions were drawn regarding the technological characteristics of ancient weapon production in the territory of Azerbaijan, its intended purposes, and its place within the socio-cultural context.

Keywords: Karabakh, archaeology, kurgan, artifact, spearheads.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Hidayət Cəfərov, t.e.d. Əmrah Dadaşov.